**Süleymanova, N.** Uşaq ədəbiyyatının banisi, maarif fədaisi // Respublika. - 2025. - 25 fevral. - **№ 42**. - S. 15.

**Ala-bula boz keçi, ay pipiyi qan xoruz, dovşan, dovşan, a dovşan! Bu misralar hər birimizə tanışdır, dillər əzbəridir. Uşaqlığımızın ən sevimli nağılları, yaddaşımıza həkk olunmuş misralar və maarifçi ruhun işığında böyüyən nəsillər... Abdulla Şaiq bir yazıçı kimi qəlblərə yol tapan, milli ruhu oyadan, maarif işığını hər kəsə çatdıran ziyalı olub. Onun əsərləri insanın içində yaşayan duyğuları, vətən sevgisini, haqq uğrunda mübarizəni və saf insani dəyərləri təlqin edir.**

Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Abdulla Şaiq yazıçı, şair, dramaturq və pedaqoq idi və uşaq ədəbiyyatının əsas yaradıcılarından biri sayılır. Onun əsərləri Azərbaycan ədəbiyyatında xüsusi yer tutur. A.Şaiq, həmçinin maarifçilik ideyalarının yayılmasına böyük töhfə verib və uzun illər müəllimlik edib. Əsərlərində vətənpərvərlik, humanizm və maarifçilik motivləri üstünlük təşkil edir. Ədib, həmçinin dünya ədəbiyyatının bir sıra nümunələrini Azərbaycan dilinə tərcümə edib. Onun maarifçi mövqeyi və pedaqoji fəaliyyəti milli təhsilin inkişafına ciddi təsir göstərib.

Abdulla Şaiq Mustafa oğlu 1881-ci ilin fevralında Tiflisin Şeytanbazar məhəlləsində anadan olub. Atası Axund Mustafa dövrünün nüfuzlu ruhani ziyalılarından idi. Abdulla ilk təhsilini Tiflisdə müsəlman uşaqları üçün nəzərdə tutulan altısinifli ruhani məktəbdə alıb. Daha sonra anası və qardaşı Yusiflə birlikdə Xorasana gedərək burada təhsilini davam etdirib. O, məntiq, poetika, ərəb şeiri, tarix və psixologiyanı dərindən öyrənib. 1900-cü ildə Tiflisə qayıtdıqdan sonra Bakıya köçərək müəllimlik fəaliyyətinə başlayıb.

1905-ci il inqilabı ərəfəsində Bakı həm siyasi çəkişmələrin, həm də ziyalı hərəkatının mərkəzinə çevrilmişdi. Dövrün ziyalılarının əksəriyyəti Qori Müəllimlər Seminariyasının məzunları idi. Onlar müasir tədris metodlarından istifadə edir, yeni əsərlər qələmə alırdılar. Mirzə Fətəli Axundov, Nəcəf bəy Vəzirov, Nəriman Nərimanov, Əbdürrəhim bəy Haqverdiyev və digər dramaturqların pyesləri səhnələşdirilirdi. 1905-1907-ci illər inqilabının təsiri ilə məktəb ətrafında mübarizə daha da qızışır və bu prosesə Azərbaycan ziyalıları, müəllimlər, mühərrirlər və ədiblər də qoşulurdu. Həmin dövrdə Qori Seminariyasının məzunları Azərbaycanın müxtəlif bölgələrində pedaqoji fəaliyyətlə məşğul olur, yeni nəslin dünyəvi təhsil almasına xüsusi diqqət yetirirdilər. Bu ziyalılar məktəblər açır, qəzet və jurnallar nəşr edir, dərsliklər hazırlayır, tədris proqramlarına dünyəvi elmləri daxil edirdilər. Onların əsas məqsədi cəmiyyətin maariflənməsinə təsir göstərmək və xalqlar arasında dostluq ideyalarını yaymaq idi.

Bakıya gəldikdən sonra Abdulla ilk olaraq Tiflisdən tanıdığı Nəriman Nərimanovla görüşdü və Bakıya müəllim olmaq arzusu ilə gəldiyini bildirdi. N.Nərimanov isə ona bu sahədə fəaliyyət göstərmək üçün imtahan verməsinin vacib olduğunu söylədi. Onun tövsiyələrindən sonra Abdulla

"Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi" kitabını öyrənərək Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatını və metodikasını mənimsədi. 1901-ci il aprelin 22-də I Aleksandr adına üçüncü oğlan gimnaziyasında təşkil olunan imtahan komissiyası qarşısında yazılı, şifahi və nümunə dərsi üzrə imtahan verdi. O, istedadı və hazırlığı ilə komissiya üzvlərinin, o cümlədən Nəriman Nərimanovun rəğbətini qazandı və hər üç imtahandan "5" qiymət aldı. Ona 608 nömrəli şəhadətnamə verilərək "Azərbaycan dili müəllimi" ixtisası təsdiqləndi. Şəhadətnaməni imzalayan komissiya üzvlərindən biri Nəriman Nərimanov idi və onun müəllim kimi iş tapmasında mühüm rol oynadı. Həmin ilin noyabrında rus-tatar məktəblərində ehtiyat müəllimi kimi pedaqoji fəaliyyətə başladı və ömrünün 34 ilini maarifin inkişafına həsr etdi. 1906-cı ilin avqustunda Bakıda keçirilən I Müəllimlər Qurultayının təşkilində fəal iştirak etdi. Qurultayda ana dili və ədəbiyyatın tədrisinə dair təkliflər irəli sürdü, nəticədə bir sıra yeni dərsliklər - "Əlifba", "Uşaq çeşməyi", "İkinci il", "Gülzar" tərtib olundu.

A.Şaiq müxtəlif illərdə "Milli qiraət", "Türk çələngi", "Ədəbiyyat", "Türk ədəbiyyatı" kimi dərsliklər hazırladı, Azərbaycan klassiklərinin əsərlərini tədris proqramına daxil etdi. Maarifçilik fəaliyyəti təkcə dərsliklərlə məhdudlaşmadı; o, qadınlar üçün jurnal nəşr etmək, uşaq bağçası və kitabxana açmaq, kasıb uşaqları pulsuz oxutmaq təşəbbüsləri ilə də çıxış etdi. Abdulla Şaiq yaradıcılığa tərcümə və qəzəllə başlasa da, ilk mətbu əsəri "Laylay" adlı uşaq şeiridir. 1906-cı ildən etibarən Azərbaycan milli uşaq poeziyasının incilərini yaradan şair "Tıq-tıq xanım", "Tülkü həccə gedir", "Yaxşı arxa" kimi mənzum nağılları qələmə alıb. "Ədhəm", "Tapdıq dədə", "Qoçpolad" poemalarında folklorun təsiri açıq-aşkar görünür. O, 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının əsasını qoyub. "İki mücahid", "Atı yaralı əsgər" kimi şeirlərində erməni daşnaklarının Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklər təsvir edilib. A.Şaiq Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasını sevinclə qarşıladı. M.Ə.Rəsulzadə onu "milli istiqlalın sevincini ilk duyanlar" arasında qeyd etmişdi. 1919-cu ildə Bakı Dövlət Universitetinin açılması münasibətilə "Tələbə həyatı" pyesini yazdı. 1920-ci ildə Sovet hakimiyyəti qurulduqdan sonra o, pedaqoji fəaliyyətini davam etdirdi, məktəblərdə ana dilində tədrisin inkişafına töhfə verdi. 1923-cü ildə onun ədəbi-pedaqoji fəaliyyətinin 20 illiyi qeyd olundu və çalışdığı gimnaziya "Şaiq nümunə məktəbi" adlandırıldı. Bu məktəbdə dərslər Azərbaycan dilində aparılırdı. Dərslik və proqram çatışmazlığına baxmayaraq, A.Şaiq və həmkarları yeni tədris materialları hazırladılar. Beləliklə, Abdulla Şaiq həm maarifçi, həm ədib, həm də milli istiqlal dəyərlərinə sadiq ziyalı kimi Azərbaycan tarixində dərin iz qoydu.

Abdulla Şaiq maarifçiliyin fədaisi idi. Onun ömrü Azərbaycan ədəbiyyatına və gənc nəslin tərbiyəsinə həsr olunmuşdu. Şaiqin əsərləri bu gün də oxucuları maarifləndirir, düşündürür və ilhamlandırır. O, milli ruhun və mədəni irsin qoruyucusu kimi tarixdə əbədi yaşayacaq.